# Hər daşın altında bir tarix yatır

İlahi bir anın diktəsi ilə zaman elə seçildi ki, Qalib Ali Baş Komandan İlham Əliyevin, müzəffər Azərbaycan Ordusunun qəhrəmanlığı ilə Ermənistanın və onun havadarlarının qırx yerdən düyün vurduqları Qarabağ otuz ildən sonra işğaldan azad edildi. Mübaliğəsiz demək olar ki, Qarabağ odlar yurdunun ən qədim və ən zəngin təbii sərvətləri olan bölgəsidir. Qarabağda hər daşın altında bir tarix yatır, adi otunun, çiçəyinin, suyunun, torpağının bəlkə də dünyada analoqu yoxdur. Otuz ildən çox ermənilərin Qarabağda törətdiyi vəhşilik vandalizm, nifrət və düşmənçilik bəlkə də dünyanın heç bir yerində bu qədər geniş miqyas almayıb. Bu, hərbi cinayətdir, Ermənistanın hərbi və siyasi rəhbərləri buna görə beynəlxalq tribunalda cavab verməlidirlər. İnsanlıq əleyhinə, azərbaycanlılara qarşı törədilmiş bu cinayəti bağışlamaq mümkün deyil.

Düşmən işğal etdiyi torpaqlarda Azərbaycanın tarixi-mədəni irsinə qarşı görünməmiş vandalizm həyata keçirib. Xalqımıza məxsus yüzlərlə daşınmaz tarixi, mədəni və dini abidələr dağıdılıb, təhqir edilib, saxtalaşmaya və mənimsənilməyə məruz qalıb. Yurdumuzun ən qədim yaşayış məskəni olan Xocavənddə bu vəhşilik daha qəddarlıqla törədilib. Məlumat üçün qeyd edək ki, Xocavənd rayonu Ağdam-Füzuli avtomobil yolunun kənarında, dağətəyi düzənlikdə yerləşir. Relyefi əsasən dağlıq olan Xocavəndin ərazisi dəniz səviyyəsindən təqribən 500 metrdən 2725 metrə (Böyük Kirs dağı) qədər hündürlükdədir.

1930-cu ildə əsası qoyulan Xocavənd rayonunun ərazisi eyni zamanda düzənlikdən ibarətdir. Rayonun ümumi sahəsi 1458 kvadratkilometrdir. Rayonda 2 şəhər tipli qəsəbə və 83 kənd olub. Xocavənd və Qırmızıbazar qəsəbələri, Qaradağlı, Əmirallar, Muğanlı, Kuropatkin, Tuğ, Axullu, Salakətin, Günəşli, Xətai və başqa kəndlər rayonun iri yaşayış məntəqələrindən hesab olunur. Xocavənd rayonunun ərazisi həm də tarixi-memarlıq və arxeoloji abidələrlə zəngindir.

Bu bölgədə ilk insanların yaşadıqları mağaralara, qədim yaşayış yerlərinə, erkən şəhər mədəniyyəti qalıqlarına, möhtəşəm qala divarlarına, müxtəlif dövrlərdə inşa edilmiş türbələrə, məbədlərə, daş-qoç heykəllərə - ümumiyyətlə nadir mədəniyyət nümunələrinə tez-tez rast gəlinir. Xocavənd ərazisində dünya və respublika əhəmiyyətli tarixi-memarlıq və mədəniyyət abidələri var. Bunlar Azərbaycan xalqının tarixini, mədəniyyətini, adət-ənənələrini əks etdirir.

Ermənilər Azərbaycanın tarixi-mədəni irsinə qarşı görünməmiş qəddarlıq və vəhşilik həyata keçiriblər. Xalqımıza məxsus yüzlərlə daşınmaz tarixi, mədəni və dini abidələr dağıdılıb, təhqir edilib. Qarabağda ermənilərin ziyan vurduqları tarixi irsimizdən biri də nəinki Azərbaycanın, eləcə də dünyanın nadir mədəni sərvətlərindən olan Azıx mağarasıdır. Qürurla deyə bilərik ki, Xocavənd rayonu ərazisində,





dəniz səviyyəsindən 900 metr yüksəklikdə, Quruçay yatağında yerləşən Azıx mağarası dünyanın ən qədim yaşayış məskənlərindən biridir. Azərbaycan alimlərinin burada apardığı tədqiqatlar nəticəsində mağaranın qədim yaşayış məskənlərindən biri olduğu üzə çıxıb. Burada aşkar olunan qədim insana məxsus alt çənə sümüyünün 350-400 min il yaşı var. Azıx mağarasında çənə sümüyündən başqa qədim insanlara məxsus müxtəlif alətlər və ocaq izləri də aşkar olunub. Bu alətlərin 1-1,5 milyon il əvvələ aid olduğu təsdiqlənib.

Erməni işğalçıları bir müddət Azıx mağarasını silah anbarına çevirib, sonra isə xarici alimləri də cəlb etməklə burada qanunsuz arxeoloji qazıntılar aparıb, Azərbaycana məxsus olan bu qədim sərvəti özününküləşdirmək, tarixi mənimsəmək üçün təxribatçı fəaliyyətlərlə məşğul olublar. Bu kimi fəaliyyətləri ilə onlar beynəlxalq humanitar hüququ, UNESCO-nun "Silahlı münaqişələr zamanı mədəni mülkiyyətin mühafizəsi" haqqında 1954-cü il Konvensiyası və "Mədəni mülkiyyətin qanunsuz idxalı, ixracı və onun üzərində sahiblik hüququnun ötürülməsinin qadağan edilməsi vasitələri" haqqında 1970-ci il Konvensiyasının müddəalarını da kobud şəkildə pozublar.

Prezident İlham Əliyev ötən il bu tarixi məskəndə - Azıxda olduğu zaman bildirib ki, bu mağaranı azərbaycanlı alim, arxeoloq Məmmədəli Hüseynov 1960-cı ildə aşkar etmişdir və ondan sonra burada tədqiqatlar aparılmışdır. Bu, dünyanın ən qədim insanının yaşayış yerlərindən biridir, Azərbaycan tarixinə məxsusdur, bizim tarixi sərvətimizdir. Ermənistan bu mağarada qanunsuz olaraq işlər aparmışdır, xaricdən qanunsuz olaraq alimlər gətirmişdir. Onlar bu mağaraya, bizim tarixi irsimizə böyük ziyan vurmuşlar. Onlar bu ziyanın hamısını ödəyəcəklər. Onları məcbur edəcəyik.

Xocavənd ərazisində onlarla alban abidəsi, məbədi və tarixi-dini günbəzlər mövcud olub. Onların çoxu erməni vəhşiləri tərəfindən dağıdılıb, yandırılıb və talan edilib. Tarixi irsimizi tam məhv etməyə ermənilərin gücü çatmayıb, onların çoxunu saxta və qondarma adlarla erməniləşdirməyə cəhd göstəriblər. Düşmənin xain və məkrli niyyətinə, özgə torpaqlarında məskunlaşmaq istəyinə ən layiqli cavabı şanlı Azərbaycan Ordusu verdi. Ermənilərin arzuları gözlərində qaldı və belləri dəmir yumruqla sındırıldı.

2020-ci il oktyabr ayının 9-da Azərbaycan Silahlı Qüvvələri tərəfindən rayonun Hadrut qəsəbəsi, sonra isə Edişə, Düdükçü, Çiraquz, Xırmancıq, Ağbulaq, Axullu, Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli, Çinarlı və digər kəndlər işğaldan azad edilib. Qeyd edək ki, adıçəkilən kəndlərin ərazisində Azərbaycan tarixinə aid çoxlu abidə və məbədlər olub. İşğaldan azad edilən və tariximizin bir parçasını yaşadan Xocavəndin yenidən qurulması və inkişafı üçün genişmiqyaslı işlərə başlanılıb. Artıq Hadrut qəsəbəsində bərpa işləri sürətlə aparılır. Sözün həqiqi mənasında xarabalıqlar üzərində və hər tərəfindən miskinlik yağan qəsəbə yeni və müasir bir şəhərə çevrilir. Xocavənd ərazisinin əlverişli coğrafi mövqeyi, dağlıq relyefi, füsunkar təbiət mənzərələri, çəmənləri, enliyarpaqlı meşələri, keyfiyyətli su ehtiyatları və tarixi abidələri buranın gələcəkdə turizm məkanı kimi şöhrət tapacağına zəmin yaradır. Xocavənd rayonu nəinki yay turizminin, eləcə də qış turizminin də inkişafı üçün böyük potensiala malikdir. Rayonda infrastrukturun yaradılması, otel və digər turizm mərkəzlərinin qurulması yerli turistlərlə yanaşı, xarici ölkələrdən, xüsusən də qonşu ölkələrdən turistlərin buraya cəlb edilməsinə şərait yaradacaq.

İndi hər birimizin ürəyindən, varlığından süzülüb gələn könlüm keçir Qarabağdan kəlmələri başı müsibətlər çəkmiş bölgənin keçmişini, tarixini əks etdirməklə yanaşı, onun xoş gələcəyindən xəbər verir. Böyük Kirs və Ərgünəş dağlarının zirvəsindən baxanda bütün Qarabağ ovuc içi kimi görünür.

**Salman ALIOĞLU,**
**"Respublika".**

Respublika .- 2022.- 13 yanvar.- S.8.